# MasterLife PAV 100

## Asfalt qatının soyulmasının qarşısını alan qatqı

### MATERİALIN TƏQDİMATI
**MasterLife® PAV 100**, bitumun doldurucuya daha sıx şəkildə yapışmasını təmin etməklə asfalt qatının soyulmasına qarşı müqaviməti artıran soyulma əleyhinə qatqıdır.

### TƏTBİQ SAHƏSİ
- Bitumlu isti qatışıqlarda;
- Aşınan qatlarda;
- Səthi üzlüklərdə.

### ÜSTÜNLÜKLƏRİ
Bitumlu üzlüklərdə yolun istismar müddətinə təsir göstərən ən mühüm xüsusiyyətlərdən biri, doldurucu ilə bitum arasında səth gərginliyini azaldaraq lazımi yapışmanın təmin olunmasıdır. Səthdə yaranmağa başlayan sökülmə, qopma, boşluq, çat kimi əsas korlanmaların səbəbi bitumun doldurucunun səthindən soyulması və nəticədə soyulmağa qarşı dayanıqlığın istənilən səviyyədə olmamasıdır. Soyulmağa qarşı müqavimət xüsusilə doldurucunun geoloji və mineroloji xüsusiyyətlərindən asılıdır. **MasterLife® PAV 100**, bitumun doldurucuya daha sıx yapışmasını təmin edərək soyulmağa qarşı müqavimətini artırır.

### SƏRFİYYAT
**MasterLife® PAV 100**, bitum çəninə 0,1-0,4% nisbətində qarışdırılır. Tətbiq dozası doldurucunun geoloji xüsusiyyətlərindən asılı olaraq dəyişir. Ümumi olaraq, istifadə dozası 0,2%-dir.

### TƏTBİQ QAYDASI
**MasterLife® PAV 100**, bitum çəninə nasosla vurularaq qarışdırılır. 160-180˚C kimi yüksək bitum temperaturunda və uzun qızdırılma müddəti ərzində sabit qalır.

### QABLAŞDIRMA
**MasterLife® PAV 100** məhsulu 900 kq-lıq konteynerlərdə, 180 kq-lıq çəlləklərdə və tökmə olaraq təchiz edilir.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| **Materialın görüntüsü** | Qatı qəhvəyi maye |
|---|---|
| Qatılığı (20⁰C-də) | 0,93-0,94 kq/litr |
| pH | 8 |
| Qaynama temperaturu (15%-lik həlledici, 760 mmHg) | 350˚C |
| Alışma temperaturu (açıq qab) | >160˚C |
| Yapışqanlığı (40⁰C-də) | 80-180 |

### MƏHSULUN SAXLANMASI

| | |
|---|---|
| Saxlama müddəti | Açılmamış qutularda, Istehsalçının təlimatların uyğun saxlandıqda saxlama müddəti 24 aydır. |
| Saxlama şəraiti | **MasterLife® PAV 100** qatqısı quru və sərin mühitdə və qızıdırıcı mənbələrdən uzaqda saxlanmalıdır. |
| Daşınması | **MasterLife® PAV 100** məhsulunun Təhlükəsizliklə bağlı Məlumatlandırıcı formuna baxın. |
| Yerləşdirmə qaydası | **MasterLife® PAV 100** məhsulunun təhlükəsizliklə bağlı məlumatlandırıcı formasına baxın. |

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

# MasterLife PAV 100

## Asfalt qatının soyulmasının qarşısını alan qatqı

### ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİYİ

Bu məhsullara dair əməyin mühafizəsi və təhlükəsizliyi üzrə bütün məlumatlar üçün əməyin mühafizəsi və təhlükəsizliyi üzrə müvafiq məlumat formasına müraciət olunmalıdır.

**Aşağıdakı ümumi şərhlər bütün məhsullar üçün qüvvədədir.**

Bütün kimyəvi məhsullarda olduğu kimi, istifadə müddəti boyunca məhsulla ehtiyatla davranmaq tələb olunur. Məhsulun göz, ağız, dəri və qida məhsulları ilə təmasının qarşısını almaq üçün anbar şəraitində saxlanmalıdır (məhsul tam şəkildə bərkiyib quruyana qədər buxar ilə korlana bilər). Məhsulun gözə və dəriyə sıçraması halında dərhal tədbir görün. Məhsul səhvən udularsa, tibbi yardım üçün müraciət edin. Məhsulu uşaqlardan və heyvanlardan uzaqda saxlamaq lazımdır. İstifadə olunduqdan sonra qabların ağzını bağlayın.

Kimyəvi məhsullar zərər yetirə bilər, tökülmüş məhsulu dərhal təmizləyin.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP